

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ *qapısı*

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 209 (21.110)

*1 noyabr 2014-cü il, şənbə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiymәti 20 qəpik


## Kənd təsərrüfatı işçilərinin təltif edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı sahəsində səmərəli fəaliyyətlərinə görə:

Quliyev Yaşar Hacı oğlu

Mazanov Baxşəli Sədəli oğlu – **“Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə”** nişanı;

Nəsirov Qüdrət Əbil oğlu – **“Rəşadətli əməyə görə”** nişanı ilə təltif edilsinlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 31 oktyabr 2014-cü il*

## Muxtar respublikanın hakim yüksəkliklərində etibarlı müdafiə sistemi yaradılıb













Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev demişdir: ***“Azərbaycan Ordusunun peşəkarlığı, döyüş qabiliyyəti artır, Azərbaycan əsgər, gizir və zabitləri Vətənə ləyaqətlə xidmət edirlər, öz Vətəninə sadiqdirlər. Bizim bütün hərbi hissələrimizdə, xüsusilə ön cəbhədə yerləşən hərbi hissələrdə ruh yüksəkliyi var və Azərbaycan əsgərinin vətənpərvərlik hissləri çox yüksəkdir, möhkəmdir”.***

Ölkəmizdə, eləcə də Naxçıvan Muxtar Respublikasında ordu quruculuğu istiqamətində həyata keçirilən tədbirlər ardıcıl xarakter almışdır. Xalqımızın mübarizə və qəhrəmanlıq tarixini özündə yaşadan Naxçıvan bu gün etibarlı müdafiə olunur. Ordu quruculuğu istiqamətində aparılan islahatlar nəticəsində Əlahiddə Ümumqoşun Ordusunun dağ şəraitində və yüksəkliklərdə yerləşən hissə və bölmələrində nümunəvi xidmət şəraiti yaradılmışdır. Bu sahədə görülən işlərin tərkib hissəsi olaraq muxtar respublikanın əsas müdafiə istehkamı sayılan Soyuq bölgəsindəki hərbi birləşmələrin döyüş fəaliyyəti xeyli yüksəldilmişdir.

Oktyabrın 30-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Soyuq bölgəsinə gəlmiş, təmas xəttində xidmətin təşkili və şəxsi heyətin məişət şəraiti ilə maraqlanmışdır.

Şəxsi heyətlə görüşən Ali Məclisin Sədri əsgərləri salamlamış, çətin dağlıq şəraitdə xidməti vəzifələrini uğurla yerinə yetirdiklərinə görə onlara təşəkkürünü bildirərək demişdir: “Sərhədlərimizi qorumaq və xidmətin nümunəvi təşkili Soyuq bölgəsində xidmət edən hərbi qulluqçuların qarşısında duran əsas vəzifələrdir. Müasir şərait, təlimlərin təşkili, silah-sursat təminatı, əsgərə qayğı Azərbaycan Ordusunun bugünkü reallıqlarıdır. Dövlətimiz tərəfindən hərbçilərimiz üçün hər cür şərait yaradılır, onların sosial müdafiəsinin gücləndirilməsinə, xidmətin nümunəvi təşkilinə diqqət və qayğı göstərilir. Son illər Soyuq bölgəsində xidmətin təşkili üçün lazımi şərait yaradılmış, bölmələrin maddi-texniki təchizatı artırılmışdır. Gələcəkdə də bu istiqamətdə tədbirlər davam etdiriləcəkdir. Çünki yaxşı xidmət şəraiti, zabit-əsgər münasibətlərinin düzgün qurulması və qarşılıqlı hörmət hərbi xidmətin əsasını təşkil edir. Əsgər və zabitlər arasında münasibətlər bu prinsip üzərində qurulmalı, xidmət günün nizam qaydalarına uyğun olaraq təşkil edilməlidir”.

Ali Məclisin Sədri demişdir: “İnsanın şəxsiyyət kimi formalaşmasında hərbi xidmət vacib amildir. Çünki hərbi xidməti uğurla başa vuran hər bir Azərbaycan gənci gələcəkdə ölkəmizin inkişafına da öz töhfəsini verəcəkdir. Bu gün Azərbaycan Ordusunda yaradılan şərait xidmətin nümunəvi təşkilinə və torpaqlarımızın etibarlı müdafiəsinə tam əminlik yaradır”.

Zabitlərdən Natiq Musayev və Elşən Orucov şəxsi heyət adından minnətdarlıq edərək demişlər ki, bu gün ölkəmizdə ordu quruculuğu sahəsində görülən işlər Vətən torpaqlarının etibarlı müdafiəsinə şərait yaratmışdır. Xalq-dövlət-ordu birliyi hərbi qulluqçuların vətənpərvərlik hisslərini daha da artırır, xidməti vəzifələrin layiqincə yerinə yetirilməsinə imkan verir. Soyuq bölgəsində xidmət edən hər bir əsgər və zabit onlar üçün yaradılan şəraiti ölkəmizdə ordu quruculuğunun nəticəsi kimi dəyərləndirir, torpaqlarımızın müdafiəsini etibarlı təşkil edirlər.

Ali Məclisin Sədri xidmətdə fərqlənən hərbi qulluqçuları qiymətli hədiyyələrlə mükafatlandırmış, yaradılan şəraitlə maraqlanmışdır.

Bildirilmişdir ki, yenidən qurulan yataqxana, yeməkxana, anbarlar və digər xidməti binalarda təhlükəsiz və rahat şəraitdə xidmətin təşkili təmin olunmuşdur. Buraya içməli su xətti çəkilmiş, istilik sistemi quraşdırılmışdır. Tibb məntəqəsində lazımi dərman vasitələri qoyulmuşdur. Şəxsi heyətin sağlamlığının qorunması diqqət mərkəzindədir. Baxış zamanı şəxsi heyətin vaxtlı-vaxtında müayinə olunmasının vacibliyi bildirilmiş, tibbi xidmətin təşkilinə xüsusi diqqət yetirilməsinin əhəmiyyəti qeyd olunmuşdur.

İdeoloji otaqda hərb elminin nəzəri əsaslarının öyrədilməsi və əsgərlərin asudə vaxtının səmərəli təşkili məqsədilə hərtərəfli şərait yaradılmış, hərbi və bədii ədəbiyyatlar qoyulmuş, müxtəlif məlumat stendləri asılmışdır. Döyüş hazırlığının ümumi hərbi-elmi əsaslarla öyrədilməsi, hərbi vərdişlərin daim təkmilləşdirilməsi diqqət mərkəzində saxlanılır.

Əsgərlərin qidalanması da günün nizam qaydasına uyğun olaraq tərtib olunmuşdur. Anbarlara baxış zamanı məlumat verilmişdir ki, burada 8 aylıq ərzaq ehtiyatı yaradılmışdır. Yüksək kalorili məhsulların qida rasionuna daxil edilməsi qış aylarında əsgərlərin sağlamlığının qorunması baxımından mühüm əhəmiyyət daşıyır. Əşya anbarında da lazımi geyim dəstləri və digər məişət əşyaları vardır.

Ali Məclisin Sədri şəxsi heyətlə xatirə şəkli çəkdirmişdir.

Sonra Ali Məclisin Sədri digər bölmələrdə olmuş, hərbi qulluqçuların mənəvi-psixoloji durumu və xidmətin təşkili ilə maraqlanmışdır.

Şəxsi heyəti salamlayan Ali Məclisin Sədri dəfələrlə Soyuq bölgəsində olduğunu bildirərək demişdir ki, hər bir ölkənin mövcudluğu onun sərhədlərindən başlanır. Döyüş bölgəsindəki şəxsi heyət qarşısında yalnız bir xidməti vəzifə durur: bu da Vətən torpaqlarının və sərhədlərimizin etibarlı qorunmasıdır. Lakin çətin dağlıq şəraitdə hərbi xidmətdə olan hər bir əsgər və zabit unutmamalıdır ki, o yalnız sərhədlərimizin deyil, həm də ölkəmizin təhlükəsizliyinin etibarlı təminatçısıdır. Soyuq bölgəsində xidmət edən əsgərlərimiz yüksək nizam-intizama və döyüş qabiliyyətinə malikdirlər. Şəxsi heyətin yüksək əhval-ruhiyyədə olması da yaradılan şəraitin və xidmətin düzgün təşkilinin nəticəsidir. Qarşılıqlı hörmət və dostluq münasibətlərinin yaradılması üçün “hamı bir nəfər, bir nəfər hamı üçün” prinsipi şəxsi heyətin xidməti fəaliyyətinin əsasını təşkil etməlidir.

*Ardı 2-ci səhifədə*





Vətən torpaqlarının qorunmasında əsgərlərə mərdlik və mübarizlik arzulayan Ali Məclisin Sədri muxtar respublikanın çətin dağlıq şəraitində yerləşən hərbi hissələrinin bundan sonra da diqqət mərkəzində olacağını bildirmişdir.



Əsgərlərdən Rövşən İmaməliyev, Əli Zeynalzadə və digərləri qeyd etmişlər ki, Ali Məclis Sədrinin muxtar respublikanın çətin dağlıq ərazilərində xidmət edən hərbi qulluqçularla görüşü şəxsi heyətin mübarizə əzmini, vətənpərvərlik hisslərini daha da artırır. Bu gün dövlətin və xalqın dəstəyini daim öz üzərində hiss edən şəxsi heyət xidməti vəzifələrinin öhdəsindən layiqincə gəlir.

Sonra Ali Məclisin Sədri hərbi birləşmənin əhatə etdiyi postlarda olmuşdur.

Azərbaycan Respublikası müdafiə nazirinin müavini, Əlahiddə Ümumqoşun Ordusunun komandanı, general-leytenant Kərəm Mustafayev Ali Məclisin Sədrinə müdafiənin ön xəttində döyüş tapşırığının yerinə yetirilməsi, hərbi texnikanın döyüşə hazırlıq vəziyyəti və hərbi qulluqçuların günün nizam qaydalarına uyğun fəaliyyəti haqqında məlumat vermişdir.

Qeyd olunmuşdur ki, muxtar respublikanın strateji əhəmiyyətli zirvə və yüksəkliklərində etibarlı müdafiə sistemi formalaşdırılmışdır. Bu yüksəkliklərdə peşəkar və yüksək döyüş hazırlığına malik olan əsgər və zabitlərimiz xidmət edir. Şəxsi heyət əməliyyat-taktiki səviyyədə yüksək döyüş hazırlığına malikdir. Təmas boyunca etibarlı əməliyyat mövqeyinin təmin edilməsi, hərbi intizamın daim möhkəmləndirilməsi, şəxsi heyətin peşəkarlığının artırılması diqqət mərkəzində saxlanılır. Postlar arasında səmtləşmənin aparılması, bölmələr arasında rabitə əlaqəsinin qurulması və müşahidənin düzgün təşkili etibarlı müdafiə sistemi yaratmışdır. Dayaq məntəqələri və postlar müasir döyüş texnikaları, artilleriya qurğuları və atıcı silahlarla təmin olunmuşdur. Döyüş növbətçiliyini aparan şəxsi heyətin istifadəsində olan cihazlar isə ən çətin hava şəraitində belə, qarşı tərəfin mövqelərinin müşahidə edilməsinə imkan verir.

Bildirilmişdir ki, Soyuq bölgəsində yeni xidməti və yaşayış binalarının inşası da nəzərdə tutulmuşdur. Aparılan tikinti işlərindən sonra xidmətin daha səmərəli təşkili təmin olunacaq, şəxsi heyətin məişət şəraiti xeyli yaxşılaşdırılacaqdır.

Ali Məclisin Sədri binaların yerləşəcəyi ərazilərə baxmış, tikinti işləri ilə bağlı müvafiq tapşırıqlar vermişdir.

Sonra Ali Məclisin Sədri komanda müşahidə məntəqəsində mövqelərimizin vəziyyəti, mövcud topoqrafik və taktiki şəraitlə tanış olmuşdur.

Müşahidə məntəqəsinə baxış zamanı təmas xəttindəki yüksəkliklər və qoşunlar arasında yerləşən ərazi, burada xidmət keçən bölmələrimizin döyüş qabiliyyəti, döyüş növbətçiliyinin aparılma qaydaları və şəxsi heyətlə keçilən təlimlər barədə məlumat verilmişdir. Ön xətdə mühəndis-istehkam qurğuları və manelər yaradılmış, onların müdafiə qüdrəti xeyli gücləndirilmiş, postlar arasında əlaqə yolları çəkilmiş, müdafiə rayonunun qorunmasının təşkili sahəsində mühüm tədbirlər görülmüşdür.

Ali Məclisin Sədri təmas xəttində yerləşən hərbi birləşmələrdə bundan sonra da döyüş hazırlığının və nizam-intizamın gücləndirilməsi, həmçinin hərbi qulluqçuların sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması və qışa hazırlığın təşkili ilə bağlı müvafiq tapşırıqlar vermişdir.



Gətirilmiş müxtəlif ərzaq məhsulları anbarlara təhvil verilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 31 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir*

## Naxçıvan Muxtar Respublikasının ali dövlət, məhkəmə-hüquq və icra orqanlarında qəbul günləri

| № | Qəbula məsul şəxslər | Qəbul günləri |
|---|---|---|
| 1. | Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini | Hər ayın II və IV həftəsinin ikinci günləri |
| 2. | Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müavini | Hər ayın II və IV həftəsinin dördüncü günləri |
| 3. | Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri | Hər ayın I və III həftəsinin üçüncü günləri |
| 4. | Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatı rəhbərinin müavini, Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri | Hər həftənin beşinci günü |
| 5. | Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müşaviri | Hər həftənin ikinci günü |
| 6. | Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının İqtisadiyyat şöbəsinin müdiri | Hər həftənin üçüncü günü |
| 7. | Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri | Hər həftənin birinci günü |
| 8. | Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Ümumi şöbəsinin müdiri | Hər həftənin dördüncü günü |
| 9. | Naxçıvan Muxtar Respublikasının Baş naziri | Hər ayın I və III həftəsinin beşinci günləri |
| 10. | Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini | Hər ayın I və III həftəsinin dördüncü günləri |
| 11. | Naxçıvan Muxtar Respublikası Baş nazirinin müavini | Hər ayın II və IV həftəsinin beşinci günləri |
| 12. | Naxçıvan Muxtar Respublikası Baş nazirinin müavini | Hər ayın II və IV həftəsinin üçüncü günləri |
| 13. | Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri | Hər ayın II və III həftəsinin beşinci günləri |
| 14. | Naxçıvan Muxtar Respublikasının prokuroru | Hər ayın II və IV həftəsinin beşinci günləri |
| 15. | Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri | Hər ayın I və III həftəsinin birinci günləri |
| 16. | Naxçıvan Muxtar Respublikasının milli təhlükəsizlik naziri | Hər ayın I və III həftəsinin üçüncü günləri |
| 17. | Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri | Hər ayın I və III həftəsinin beşinci günləri |
| 18. | Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar naziri | Hər ayın II və IV həftəsinin dördüncü günləri |
| 19. | Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri | Hər ayın I və III həftəsinin beşinci günləri |
| 20. | Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) | Hər ayın I və IV həftəsinin beşinci günləri |
| 21. | Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi | Hər ayın I və III həftəsinin beşinci günləri |
| 22. | Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi | Hər ayın I və IV həftəsinin beşinci günləri |
| 23. | Naxçıvan Muxtar Respublikasının hərbi prokuroru | Hər ayın II və IV həftəsinin beşinci günləri |
| 24. | Naxçıvan Muxtar Respublikasının maliyyə naziri | Hər ayın II və IV həftəsinin ikinci günləri |
| 25. | Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat və sənaye naziri | Hər ayın II və IV həftəsinin beşinci günləri |
| 26. | Naxçıvan Muxtar Respublikasının vergilər naziri | Hər ayın II və IV həftəsinin beşinci günləri |
| 27. | Naxçıvan Muxtar Respublikasının nəqliyyat naziri | Hər ayın I və III həftəsinin beşinci günləri |
| 28. | Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri | Hər ayın I və III həftəsinin üçüncü günləri |
| 29. | Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri | Hər ayın II və IV həftəsinin beşinci günləri |
| 30. | Naxçıvan Muxtar Respublikasının rabitə və yeni texnologiyalar naziri | Hər ayın I və III həftəsinin üçüncü günləri |
| 31. | Naxçıvan Muxtar Respublikasının təhsil naziri | Hər ayın II və IV həftəsinin beşinci günləri |
| 32. | Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri | Hər ayın I və III həftəsinin üçüncü günləri |
| 33. | Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri | Hər ayın II və IV həftəsinin ikinci günləri |

| № | Qəbula məsul şəxslər | Qəbul günləri |
|---|---|---|
| 34. | Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri | Hər ayın I və III həftəsinin beşinci günləri |
| 35. | Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri | Hər ayın I və III həftəsinin ikinci günləri |
| 36. | Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin sədri | Hər ayın I və IV həftəsinin beşinci günləri |
| 37. | Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin sədri | Hər ayın II və IV həftəsinin dördüncü günləri |
| 38. | Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri | Hər ayın II və IV həftəsinin üçüncü günləri |
| 39. | Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri | Hər ayın I və III həftəsinin birinci günləri |
| 40. | Naxçıvan Muxtar Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin sədri | Hər ayın I və IV həftəsinin ikinci günləri |
| 41. | Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri | Hər ayın I və III həftəsinin birinci günləri |
| 42. | Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri | Hər ayın II və IV həftəsinin beşinci günləri |
| 43. | Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın sədri | Hər ayın I və III həftəsinin üçüncü günləri |
| 44. | Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin rəisi | Hər ayın II və IV həftəsinin ikinci günləri |
| 45. | Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin rəisi | Hər ayın I və III həftəsinin dördüncü günləri |
| 46. | Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun sədri | Hər ayın I və III həftəsinin ikinci günləri |
| 47. | Naxçıvan Muxtar Respublikası Arxiv İdarəsinin rəisi | Hər ayın I və III həftəsinin ikinci günləri |
| 48. | Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə İdarəsinin rəisi | Hər ayın II və IV həftəsinin ikinci günləri |
| 49. | Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin baş direktoru | Hər ayın I və III həftəsinin üçüncü günləri |
| 50. | Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin baş direktoru | Hər ayın I və III həftəsinin ikinci günləri |
| 51. | Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin rəisi | Hər ayın I və III həftəsinin üçüncü günləri |
| 52. | Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri | Hər ayın I və IV həftəsinin beşinci günləri |
| 53. | Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Şirkətinin baş direktoru | Hər ayın I və III həftəsinin ikinci günləri |
| 54. | Naxçıvan Beynəlxalq Hava Limanının direktoru | Hər ayın II və IV həftəsinin beşinci günləri |
| 55. | “Naxçıvanqaz” İstehsalat Birliyinin direktoru | Hər ayın I və III həftəsinin beşinci günləri |
| 56. | “Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru | Hər ayın II və IV həftəsinin ikinci günləri |
| 57. | Naxçıvan “Balıqçılıq” Açıq Səhmdar Cəmiyyətinin direktoru | Hər ayın II və IV həftəsinin beşinci günləri |
| 58. | “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin baş direktoru | Hər ayın I və IV həftəsinin birinci günləri |
| 59. | Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı | Hər həftənin beşinci günü |
| 60. | Şərur Rayon İcra Hakimiyyətinin başçısı | Hər həftənin beşinci günü |
| 61. | Babək Rayon İcra Hakimiyyətinin başçısı | Hər həftənin ikinci günü |
| 62. | Ordubad Rayon İcra Hakimiyyətinin başçısı | Hər həftənin üçüncü günü |
| 63. | Culfa Rayon İcra Hakimiyyətinin başçısı | Hər həftənin beşinci günü |
| 64. | Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı | Hər həftənin beşinci günü |
| 65. | Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı | Hər həftənin birinci günü |
| 66. | Sədərək Rayon İcra Hakimiyyətinin başçısı | Hər həftənin ikinci günü |



*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2008-ci il 9 oktyabr tarixli Fərmanı ilə hər il noyabrın 1-i ölkəmizdə “Kənd Təsərrüfatı İşçiləri Günü” kimi qeyd olunur.*

*1 noyabr Kənd Təsərrüfatı İşçiləri Günüdür*

# Muxtar respublikada aqrar sahə uğurla inkişaf etdirilir

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə XX əsrin 70-80-ci illərində ölkəmizdə digər sahələrlə yanaşı, kənd təsərrüfatının inkişafının da əsası qoyulmuşdur. Bu sahənin inkişafına yönəlmiş tədbirlər nəticəsində Azərbaycan ittifaq respublikaları sırasında kənd təsərrüfatının inkişaf göstəricilərinə görə qabaqcıl yerlərdən birini tutmuşdur. Lakin 90-cı illərin məlum hadisələri, bütövlükdə, ölkə iqtisadiyyatını, o cümlədən kənd təsərrüfatını da iflic vəziyyətinə salmış, infrastruktur tamamilə dağıdılmışdır. Belə bir dövrdə ulu öndərin Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıtması ilə ölkə iqtisadiyyatında yeni inkişaf mərhələsi başlanmış, uğurlu aqrar islahatlar həyata keçirilmişdir. Ötən əsrin 90-cı illərində ilk dəfə Naxçıvan Muxtar Respublikasında həyata keçirilən bu islahatlar sonrakı dövrdə Azərbaycanın bütün ərazisində davam etdirilmiş, kənd təsərrüfatının inkişafı yeni modeldə, özəl təsərrüfatların yaradılması yolu ilə aparılmışdır. Bu dövrdə ulu öndərin rəhbərliyi ilə aqrar sahənin qanunvericilik bazasının yaradılmasına başlanılmış, “Aqrar islahatların əsasları haqqında”, “Sovxoz və kolxozların islahatı haqqında”, “Torpaq islahatı haqqında” Azərbaycan Respublikasının qanunları, Torpaq, Meşə və Su məcəllələri qəbul edilmiş, bir sıra digər normativ-hüquqi aktlar imzalanmışdır.

Ulu öndərin müəyyənləşdirdiyi aqrar islahatlar bu gün də ölkəmizdə uğurla davam etdirilir. Bu inkişafın davamlılığını təmin etmək məqsədilə zamanla ayaqlaşan dövlət proqramları, mütərəqqi qanunlar qəbul olunur, aqrar sahənin inkişafına hesablanmış tədbirlər həyata keçirilir. ***“Ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində bizim konkret planımız, proqramımız var. Çalışmalıyıq ki, Azərbaycanda istehlak olunan bütün ərzaq məhsulları Azərbaycanda istehsal edilsin”,*** – deyən ölkə Prezidenti cənab İlham Əliyev aqrar-sənaye kompleksinin inkişafını diqqət mərkəzində saxlayır, ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində konkret tədbirlər görülür.

Son illər Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın bütün sahələrində olduğu kimi, kənd təsərrüfatının inkişafı istiqamətində də kompleks tədbirlər həyata keçirilir. Muxtar respublikada özəl mülkiyyətə əsaslanan aqrar münasibətlərin formalaşmasının əsası ümummilli liderimizin siyasi fəaliyyətinin Naxçıvan dövründə – ötən əsrin 90-cı illərində qoyulmuşdur. Sonrakı dövrlərdə davam etdirilən bu prosesin ilk mərhələsi 2000-ci ildə başa çatdırılmışdır. 205 kəndi, 132 kolxoz, sovxoz və birlikləri əhatə etməklə aparılan torpaq islahatları nəticəsində 72 min 758 ailəyə və ya 241 min 46 nəfərə torpaq sahəsi verilmişdir. Artıq muxtar respublikada bu sahəni əhatə edən yeni istehsal və emal müəssisələrinin fəaliyyətə başlaması, əkinçiliyin və heyvandarlığın inkişaf etdirilməsi, güzəştli şərtlərlə kreditlərin verilməsi məhsul istehsalının artmasına və nəticə etibarı ilə, ərzaq təhlükəsizliyinin təmin olunmasına səbəb olmuşdur.

Aqrar bölmədə aparılan islahatlar Naxçıvanda kənd təsərrüfatının bitkiçilik və heyvandarlıq, eləcə də emal sənayesinin inkişafına etibarlı zəmin yaratmışdır. Kənd təsərrüfatı sahəsinin inkişafı dövlətimiz tərəfindən daim diqqət mərkəzində saxlanılmış, istehsalın artırılması və intensiv amillər hesabına məhsuldarlığın çoxaldılmasına hesablanmış bir sıra sərəncam və qərarlar qəbul olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamları ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı üzrə Dövlət Proqramı (2005-2010-cu illər)”, “2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”, “Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”, “2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”nın icrası muxtar respublikada aqrar sahənin davamlı inkişafına təminat verir.

Muxtar respublikanın iqlim şəraiti və əhalinin əsas hissəsinin kənd təsərrüfatı ilə məşğul olması burada əkinçiliyin inkişafını şərtləndirir. Fermerlərə yanacağın, motor yağının, gübrənin alınmasına çəkilən xərclərin 50 faizinin dövlət tərəfindən ödənilməsi, taxıl əkinlərinə görə subsidiyaların verilməsi, texniki təminatın yaxşılaşdırılması üçün istehsalçılara lizinq yolu ilə güzəştli şərtlərə əsasında texnika və gübrələrin satılması əkinçiliyin inkişafında yeni istiqamətlər açmış, əkin sahələrinin və məhsuldarlığın ilbəil artmasına səbəb olmuşdur. Təkcə 2014-cü ilin məhsulu üçün muxtar respublikada 60 min 829 hektar sahədə əkin işləri həyata keçirilmişdir. 2014-cü ilin 9 ayı ərzində muxtar respublikada 109 min 624 ton dənli və dənli-paxlalılar, 4 min 225 ton dən üçün qarğıdalı, 663 ton dən üçün günəbaxan, 63 min 753 ton tərəvəz, 41 min 405 ton kartof, 34 min 339 ton bostan məhsulları, 34 min 495 ton meyvə, 9 min 427 ton üzüm istehsal olunmuşdur.

Torpaq sahələrinin normalara uyğun suvarma suyu ilə təmin edilməsi əkinçiliyin inkişafını təmin edən əsas amillərdən biridir. Buna görə də muxtar respublikada irriqasiya sistemləri daim yeniləşdirilir, meliorasiya tədbirləri həyata keçirilir. Bu da torpaq sahələrində su təminatının yaxşılaşdırılmasına, yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılmasına imkan verir. Suvarma sistemlərinin yaxşılaşdırılması istiqamətində tədbirlər bu il də davam etdirilir. Belə ki, “Kəngərli rayonunda irriqasiya sistemlərinin təkmilləşdirilməsi” layihəsi çərçivəsində yeni suvarma şəbəkəsi qurulur, rayon ərazisində yeni nasos stansiyasının, suqəbuledici və supaylayıcı hovuzların tikintisi aparılır. Həmçinin aparılan yenidənqurma işləri nəticəsində Uzunoba Su Anbarının həcmi 8 milyon kubmetrə çatdırılmış, nəticədə, Kəngərli rayonunda 3300 hektar torpaq sahəsi əkin dövriyyəsinə qatılmışdır. Azərbaycan Respublikası ilə İslam İnkişaf Bankı arasında imzalanmış müqaviləyə əsasən həyata keçirilən daha bir layihə əsasında bu il Sədərək rayonunda nasos stansiyasının tikintisi başa çatdırılmış, 1500 hektara yaxın torpaq sahəsinin suvarılması yaxşılaşdırılmışdır.

Yüksəkkeyfiyyətli qida məhsullarının, xüsusilə ət və süd məhsullarının əldə olunması məqsədilə heyvandarlığın inkişafı diqqət mərkəzində saxlanılır. Əsasən, düzən yerlərdə heyvandarlığın ətlik-südlük istiqaməti inkişaf etdirilir. Hazırda muxtar respublikada 109 min 822 baş iribuynuzlu mal-qara, 668 min 933 baş xırdabuynuzlu heyvan saxlanılır. Bundan başqa, muxtar respublikada iribuynuzlu mal-qaranın cins tərkibini daha da yaxşılaşdırmaq və məhsuldar mal-qaranın xüsusi çəkisini artırmaq məqsədilə bu günədək “Naxçıvan Aqrolizinq” ASC tərəfindən 1688 baş, o cümlədən 1181 baş “Holştin-friz”, 423 baş “Simmental” və 84 baş “Şvis” cinsli yüksək məhsuldar mal-qara gətirilərək sahibkarlara satılmışdır. Həmçinin əhalinin yumurta və quş ətinə olan tələbatının yerli istehsal hesabına ödənilməsinə də xüsusi diqqət yetirilir, yeni quşçuluq təsərrüfatları yaradılır. Hazırda muxtar respublikada 63 quşçuluq təsərrüfatı fəaliyyət göstərir. Görülmüş işlərin nəticəsidir ki, 2014-cü ilin 9 ayı ərzində diri çəkidə ət istehsalı 14 min 968 ton, süd istehsalı 66 min 399 ton, yun istehsalı 854 ton, yumurta istehsalı isə 60 milyon 984 min ədəd olmuşdur.



Əhalinin sağlamlığının qorunması məqsədilə həyata keçirilən sistemli tədbirlər nəticəsində qida məhsullarının, xüsusilə ət və süd məhsullarının yüksək keyfiyyət göstəricilərinin təmin olunması, heyvan mənşəli xəstəliklərə qarşı vaxtında mübarizə tədbirlərinin aparılması prosesləri uğurla davam etdirilir. Muxtar respublikada Dövlət Baytarlıq Xidməti tərəfindən mütəmadi olaraq mal-qara və quşlar arasında müxtəlif xəstəliklərə qarşı profilaktik peyvəndləmə və dezinfeksiya işləri aparılır, epizootiya əleyhinə və bioloji təhlükəsizliyin qorunması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

Kənd təsərrüfatında istehsalın səmərəliliyinin artırılmasına, əl əməyinin yüngülləşdirilməsinə və məhsulun maya dəyərinin aşağı salınmasına imkan yaradan texnika ilə təchizata da xüsusi diqqət yetirilir. 2005-ci ildə yaradılan “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin xətti ilə muxtar respublikaya müxtəliftəyinatlı kənd təsərrüfatı texnikaları gətirilmiş, lizinq yolu ilə sahibkarlara və torpaq mülkiyyətçilərinə satılmışdır. Təkcə 2014-cü ilin ötən dövründə muxtar respublikaya 235 ədəd kənd təsərrüfatı texnikası alınıb gətirilmişdir.

*Ardı 4-cü səhifədə*

Əhalini il boyu meyvə-tərəvəz məhsulları ilə təmin etmək muxtar respublikada aqrar sahədə həyata keçirilən əsas tədbirlərdəndir. İri-tutumlu soyuducu anbarların tikilməsi və istixana komplekslərinin yaradılması ilin istənilən fəslində bazarın tələbinin ödənilməsinə imkan verir. Hazırda muxtar respublikada ümumi tutumu 12 min 150 ton olan 19 soyuducu anbar və sahəsi 52 min 316 kvadratmetr olan 12 istixana kompleksi fəaliyyət göstərir. Muxtar respublikada əhalinin ərzaq məhsullarına olan tələbatının etibarlı ödənilməsi istiqamətində əlavə tədbirlər də görülür, istehsal olunan malların satışı üçün hərtərəfli şərait yaradılır. Artıq bir neçə ildir ki, istehsalçıların istehsal etdikləri məhsulların satışını təmin etmək üçün kənd təsərrüfatı məhsullarının satış yarmarkaları təşkil edilir.

Ümumiyyətlə, həyata keçirilən aqrar siyasətin səmərəli nəticəsi olaraq, bu gün tələbatın əsas etibarilə yerli istehsal hesabına ödənilməsinə nail olunmuş, daxili bazarda məhsul bolluğu yaradılmışdır. 2014-cü ilin ilk 9 ayında muxtar respublikada 270 milyon 668 min manatdan çox kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da 2013-cü ilin müvafiq dövrü ilə müqayisədə 4,7 faiz çoxdur. Hazırda əhalinin ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına tam ödənilməsi üçün dövlət tərəfindən müvafiq tədbirlər həyata keçirilir. Ümumilikdə, cari ilin yanvar-sentyabr ayları ərzində kənd təsərrüfatı subyektlərinə 13 milyon 211 min manatdan çox həcmdə kreditin verilməsi təmin olunmuşdur ki, bu da bir il öncəki müvafiq göstəricidən 35,2 faiz çoxdur.

Ötən dövr ərzində də Kənd Təsərrüfatı Nazirliyi və onun strukturuna daxil olan bölmələr tərəfindən torpaq mülkiyyətçiləri və fermerlərlə fərdi izahat və maarifləndirmə işi davam etdirilmiş, torpaqlardan səmərəli istifadə olunması, məhsuldar toxum sortlarının əkilməsi barədə kənd əməkçilərinə məsləhətlər verilmişdir. Bütövlükdə, nümunəvi torpaq islahatı, aqrar-sənaye kompleksinin beynəlxalq təcrübə əsasında yenidən qurulması, meliorasiya və irriqasiya sistemlərinin təkmilləşdirilməsi muxtar respublikamızda ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində atılan mühüm addımlardır.

*Peşə bayramlarını qeyd edən kənd təsərrüfatı işçiləri muxtar respublikamızda ərzaq təhlükəsizliyinin təmin olunması məqsədilə qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəlmək üçün bundan sonra da səylərini əsirgəməyəcəklər.*

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

## Növbəti əmək yarmarkası keçirilib

***İşaxtaran vətəndaşların müvafiq iş yerləri ilə təmin olunması məqsədilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən həyata keçirilən aktiv məşğulluq tədbirləri davam etdirilir.***



Bunun üçün yerli məşğulluq mərkəzləri tərəfindən xidməti ərazi üzrə idarə, müəssisə və təşkilatlarla mütəmadi əlaqələr saxlanılaraq işaxtaran vətəndaşların seçimi üçün boş iş yerləri barədə məlumatlar toplanılır və əmək yarmarkalarına təqdim edilir. Növbəti belə əmək yarmarkası dünən Naxçıvan şəhərində keçirilib.

Tədbiri giriş sözü ilə Naxçıvan Şəhər Məşğulluq Mərkəzinin direktoru Əli Məmmədov açıb. Qeyd olunub ki, muxtar respublikamızın hərtərəfli inkişafı əhalinin məşğulluğunun təmin olunmasında da mühüm rol oynayıb. Tikinti-quruculuq işlərinin genişləndirilməsi, müxtəlif istehsal və xidmət sahələrinin yaradılması nəticəsində əvvəlki illərdə olduğu kimi, cari ildə də xeyli iş yerləri yaradılıb. Bu da işaxtaran vətəndaşların qarşısında geniş imkanlar açır. Keçirilən əmək yarmarkaları əhalinin məşğulluğunun artırılmasında, onların müvafiq işlərlə təmin olunmasında böyük rol oynayır.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin əməkdaşı İsmayıl Gülməmmədov bildirib ki, əhalinin sosial rifahının yüksəldilməsi, məşğulluğunun təmin olunması istiqamətində həyata keçirilən tədbirlər muxtar respublikamızda, eləcə də Naxçıvan şəhərində uğurla davam etdirilir. Bu tədbirlər əhalinin məşğulluğunun təmin olunması ilə yanaşı, yoxsulluğun aradan qaldırılmasına da geniş imkanlar açıb.

İşaxtaran vətəndaş Səidə Süleymanova çıxış edərək vətəndaşların müvafiq işlərlə təmin edilməsi üçün keçirilən əmək yarmarkalarının böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb. Yarmarkaların təşkilində əməyi olanlara minnətdarlığını bildirən Səidə Süleymanova qeyd edib ki, istənilən işaxtaran burada öz ixtisasına və bacarığına uyğun iş yeri tapa bilər.

Qeyd edək ki, Naxçıvan şəhərində təşkil edilən əmək yarmarkasına 61 təşkilatdan 562 boş iş yeri təqdim olunub. Yarmarkada 40 nəfərə göndəriş verilib.

**✍ Səbuhi HƏSƏNOV**

## M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında seminar

***M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanası A.Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanası ilə birlikdə rayon (şəhər) Mərkəzləşdirilmiş Kitabxana sistemlərində çalışanlara metodik köməklik məqsədilə seminar keçirib.***



Seminarı giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı İman Alırzayev açaraq keçirilən tədbirin məqsəd və mahiyyətindən danışıb.

Seminarda muxtar respublika kitabxanasının şöbə müdirləri Tamella Əsgərovanın, Südabə Heydərovanın, Minayə Nəbisoyun, Yeganə Rüstəmovanın və A.Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanasının böyük kitabxanaçısı Səfa Orucovanın çıxışları olub. Çıxışlarda komplektləşdirmə üzrə görülən işlərdən bəhs edilib. Həmçinin kitabxana fondunda işin təşkili, kitabxanaya oxucu cəlbi və kütləvi tədbirlərin keçirilməsində yeni forma və metodlar haqqında seminar iştirakçılarına məlumatlar verilib.

Sonda seminar iştirakçılarının sualları cavablandırılıb.

**✍ Sara ƏZİMOVA**

***Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında Bakı Dövlət Universitetinin professoru, Əməkdar elm xadimi Şahlar Əsgərovun "Kamilləşən düşüncə" kitabının təqdimat mərasimi keçirilib.***

## "Kamilləşən düşüncə" kitabının təqdimatı olub

Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov tədbiri giriş sözü ilə açaraq professor Şahlar Əsgərovun Azərbaycan elmi, ictimaiyyəti qarşısındakı xidmətlərindən danışıb.

Universitetin Ümumi riyaziyyat kafedrasının professoru, fəlsəfə elmləri doktoru Məhəmməd Hacıyev "Dəyərlərin qiymətləndirilməsinin elmi əsasları" adlı məruzəsində bildirib ki, professor, fizika-riyaziyyat elmləri doktoru, Əməkdar elm xadimi, "Şöhrət" ordenli, bir sıra beynəlxalq akademiyaların üzvü Şahlar Əsgərov 300-dən çox elmi, 700-ə qədər publisistik məqalənin, numizmatika, kriminalistika və tətbiqi incəsənət sahələrində ixtira və patentlərin müəllifidir. Şahlar müəllimin ictimai elmlər sahəsində apardığı axtarışların bəhrəsi olan və elmi nəticələri ilə seçilən "Keçid dövrünə fəlsəfi baxış", "Təhsilimiz dünən, bu gün və sabah", "Düşüncə tərzi", "Dəyərlərin qiymətləndirilməsinin yeni meyarı" adlı kitabları elmi ictimaiyyət tərəfindən maraqla qarşılanıb. Nəfis şəkildə tərtib olunmuş "Kamilləşən düşüncə" adlı kitabda isə bir sıra sosial-iqtisadi hadisələrin mahiyyətinə və inkişafına yeni meyardan yanaşılır. Kitab qloballaşma dövründə milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına xidmət etməklə yanaşı, bəşəriyyətin inkişafı probleminin yeni həlli yollarını irəli sürmək baxımından da əhəmiyyətlidir.



Tədbirdə Fəlsəfə və sosial iş kafedrasının müdiri Novruzəli Rəhimov çıxış edərək kitabın elmi məziyyətlərindən, praktik tətbiq sahələrindən danışıb.

Bildirilib ki, müəllif kitabında bəzi sosial-iqtisadi göstəriciləri ilk dəfə olaraq cədvəl şəklində deyil, qrafik şəklində təqdim edir. Kitabda bəşər tarixini şərti olaraq iki dövrə bölən Ş.Əsgərov birinci tarixi dövrdə bütün tarixi proseslərə şəxsi mənafe və instinkt düşüncələrin əsas təsir göstərdiyi ideyasını irəli sürür. İkinci dövr isə ictimai mənafe və şüurun qalib gəlməsi ilə səciyyələndirilir. Kamilləşmənin yolunun məhz idrakdan, özünüdərkdən keçdiyi bildirilən kitab Allahın varlığının riyazi isbatı ilə bağlı elmi-nəzəri müdəalarla zəngindir.

Sonda müəllif çıxış edərək Naxçıvana dəvət olunmasına, kitabının təqdimatının keçirilməsinə görə minnətdarlığını bildirib, muxtar respublika, universitet haqqında yüksək təəssüratlarını bölüşüb, təhsil sahəsində əldə olunan nailiyyətlərdən, mövcud problemlərin həlli yollarından söhbət açıb.

**Mehriban SULTAN**

## Növbəti sertifikasiya test imtahanında 28 nəfər zəruri həddi keçə bilməyib

Muxtar respublikamızda praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan səhiyyə mütəxəssislərinin sertifikasiya prosesi davam etdirilir. Məlum olduğu kimi, bu işə 2011-ci ilin sentyabr ayından başlanıb, təkcə cari ilin mart ayından iyun ayının sonuna kimi imtahanda 240 nəfər iştirak edib, 167 nəfər uğurlu nəticələr qazanıb.

Növbəti test imtahanında isə "laboratoriya işi" ixtisası üzrə Şərur, Şahbuz, Babək, Ordubad, Culfa, Sədərək rayon mərkəzi, kənd sahə xəstəxanalarının, kənd həkim ambulatoriyalarının 46 orta tibb işçisi öz bilik və bacarıqlarını sınayıb.

Naxçıvan Dövlət Universitetində keçirilən test imtahanında Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi sertifikasiya imtahanına nəzarət komissiyasının sədri Zülfiyyə Həsənova tibb işçilərinin sertifikasiyasını kadr potensialının gücləndirilməsi istiqamətində ən önəmli addımlardan biri kimi dəyərləndirərək deyib ki, hazırda bütün qabaqcıl ölkələrdə olduğu kimi, muxtar respublikamızda da beş ildən bir imtahan verib sertifikat almayan tibb işçiləri praktik fəaliyyətlə məşğul ola bilməzlər. Mərkəzləşdirilmiş qaydada, obyektiv və şəffaf surətdə keçirilən sertifikasiya tibb işçilərinin öz üzərlərində çalışmasına, tibb sənətinin məsuliyyətini daha dərindən dərk etməsinə imkan yaradır. Bu proseslər muxtar respublikamızda da həkimlərin və orta tibb işçilərinin bilik və peşə bacarıqlarının artırılmasını zəruri edir. Sertifikasiya əhaliyə keyfiyyətli səhiyyə xidmətinin göstərilməsi, praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin peşəkarlıq səviyyəsinin və peşə yararlılığının artırılması məqsədilə həyata keçirilir.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində test imtahanı üçün əvvəlcədən 1000 sual tərtib edilərək kompüterə yerləşdirilib. Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının Naxçıvan Muxtar Respublikası Regional Bölməsi nümayəndəsinin iştirakı ilə test bankından hər variant üzrə 100 sual seçilərək imtahanda iştirak edən orta tibb işçilərinə paylanıb, 3 saat davam edən imtahanın şəffaf, tam obyektiv şəraitdə keçirilməsi təmin edilib.

Test imtahanının yekunlarına görə, mütəxəssislərdən 5 nəfər 90-100, 4 nəfər 80-90, 2 nəfər 70-80, 7 nəfər 60-70 arası bal toplayaraq test imtahanından keçərli sayılıblar. 28 tibb bacısı isə zəruri həddi keçə bilməyib. Onlar ixtisasartırma kurslarından sonra yenidən imtahan verməli olacaqlar. Sertifikasiya prosesinin müsahibə mərhələsi növbəti on gün ərzində keçiriləcək və bu mərhələdə də uğur qazananlar növbəti beş il üçün sertifikat alacaqlar.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Şahmatçımızın daha bir uğuru

Naxçıvan şahmatçılarının dünya arenalarında uğurlu çıxışları davam etməkdədir. Bu dəfə zəka sahibimiz Pərviz Qasımov Gürcüstanın Batumi şəhərində bütün diqqətləri öz üzərinə cəlb etməyi bacarıb. Naxçıvan şahmat məktəbinin yetirməsi olan zəka sahibi 24-cü Avropa çempionatında 14 yaşlı şahmatçılar arasında bürünc medal qazanıb. Həmyaşıdları arasında qitənin ən güclü 3 şahmatçısından biri adını qazanan Pərviz Qasımov bu uğuru sayəsində reytinq xalını 211-ə çatdırıb.

Hazırda aktivində 2160 reytinq xalı olan Pərviz üçün cari ili uğurlu hesab etmək olar. Belə ki, o, iyul ayında keçirilən respublika şahmat olimpiadasının qalibi olmaqla yanaşı, həm də Naxçıvanda keçirilən "Naxçıvan Open-2014"-ün də qalibidir. Beynəlxalq arenada isə Pərviz Qasımov iyun ayında Yunanıstanın Kaval şəhərində keçirilən məktəblilər arasında Avropa çempionatında ikinci, avqust ayında Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən beynəlxalq turnirdə isə üçüncü olub.

**✍ Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səyyar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 918